# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 361 Bakı şəhəri, 29 sentyabr 2020-ci il**

***"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 549; 2011, № 3, maddə 235; 2012, № 1, maddə 33) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" sözləri "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" sözləri ilə əvəz edilsin;

1.2. Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2021/2022-ci tədris ilindən tətbiq edilir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***